

## PROFESSORDAN MÜKƏMMƏL İZAH: "UNİVERSİTETLƏRDƏ KURSLAR YARADILSA, NEQATİV HALLAR..."

*İyunun 8-də "Şərq" qəzetinin internet səhifəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə dərc olunmuş müsahibəni oxucularımıza təqdim edirik.*

"Bu gün Azərbaycan universitetlərində hazırlıq kursları mövcud deyil"- bunu *Sherg.az*-a ali məktəblərdə hazırlıq kurslarının yaradılması məsələsindən danışarkən Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlı deyib.

O bildirib ki, hələlik universitetlərə qəbul mərkəzi imtahanla aparılır:

"Təhsil Nazirliyinin qəbul siyasətini liberallaşdırmaq cəhdi bəyənilləndir. Düzdür, Dövlət İmtahan Mərkəzi öz rolunu oynayır. Korrupsiyaya qarşı mübarizə, obyektivliyin təmin olunması baxımından DİM-in müsbət rolu şübhəsizdir. Eyni zamanda, bu, həddindən artıq, ultramərkəzləşdirilmiş sistemdir ki, ali məktəblər özləri heç nə edə bilmirlər. Məsələn, rəhbərliyimdə olan təhsil ocağına gələn tələbələrin DİM-dən kağız gətirməsi mənim üçün kifayət etmir. Həmin tələbələrin şəxsiyyəti, maraqları mühüm rol oynayır. Eyni test nəticəsi göstərən iki tələbə bir-birindən çox fərqli ola bilər. Ona görə, tələbə qəbulu prosesində universitetlərin rolunu artırmaq lazımdır. Digər tərəfdən, müxtəlif baxış olacaq ki, istər-istəməz rüşvət, tapşırıq cəhdləri də ola bilər. Ali məktəblər özləri fərqli olduğuna görə, onların yanaşması da fərqli ola bilər. Universitetlərin daxilində hazırlıq kursları yaradılsa, ümumilikdə neqativ halların qarşısını tam almaq mümkün deyil. Kimlərin necə hərəkət etməsi görünəcək.

Ali məktəblərə müəyyən imkanlar yaratmaq lazımdır ki, onlar öz tələbə seçimi siyasətlərini həyata keçirsinlər. Amma ictimai rəy, Təhsil Nazirliyi, dövlət strukturları görsünlər ki, kimlər necə hərəkət edir. Bütün Avropa və Amerikada mərkəzi imtahan sistemi yoxdur. Lakin onların maraqları, mədəniyyətləri, reytinqlərdə yüksək yer tutma səyləri və s. onları məcbur edir ki, obyektiv işləsinlər, ən yaxşı tələbələri, eyni zamanda ən yaxşı professorları cəlb etsinlər. Səviyyənin yüksək olmasına çalışırlar. Hər şeyi mərkəzdən idarə etmək olmur. Ali məktəblərin özünə əsas rol vermək lazımdır".

H.İsaxanlı əlavə edib ki, hazırlıq kurslarının necə yaradılması, texniki məsələlərin dəqiqləşdirilməsi Təhsil Nazirliyinin səlahiyyətində olacaq:

"Bəzi məsələlər müzakirə olunmalı, hansı risklərin nəzərdə tutulduğu ölçülməlidir. Buna ümumi şəkildə qəbul siyasətinin liberallaşması deyilir.

Amma hər kəsə məlumdur ki, ali təhsilli insanların sayına görə Azərbaycan digər ölkələrdən geri qalır. Düzdür, biz keyfiyyətli ali təhsilə üstünlük veririk, amma bütün başqa ölkələrdə ali təhsil ölkəmizdəkinə nisbətən daha əlçatandır. Qəbul siyasətini yumşaltmaq lazımdır. Əgər insanlar oxumaq istəyirsə, onların bir hissəsi yüksək qiymətlər alıb, dövlət tərəfindən oxudulmalıdır. Digərləri isə oxumaq istəyirsə, ali məktəb onu götürmək istəyirsə, qoy oxusunlar.

Məsələn, mən Xəzər Universitetinə tələbələri götürdükdə çalışacağam ən yaxşı, istedadlı tələbələri götürüm. Kasıbdır, oxuya bilmirsə, elə hazırlamaq lazımdır ki, o, dövlətdən pulunu alıb, gələ bilsin".

**Ayyət Əhməd**

*http://www.sherg.az/site/id32412/_Professordan_mükəmməl_İZAH:_"Universitetlərdə_kurslar_yaradılsa,_neqativ_hallar..._"*